

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 212 (23.123)

*6 noyabr 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunda əsaslı şəkildə yenidən qurulan Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun açılışında iştirak edib.

Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağdam filialının, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksinin açılışında iştirak ediblər.



## Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının yaradılmasının 25-ci ildönümü qeyd olunub

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının yaradılmasının 25-ci ildönümü münasibətilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində tədbir keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli açaraq yubiley münasibətilə partiya üzvlərini təbrik edib və "Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının keçdiyi tarixi yol və qarşıda duran vəzifələr" mövzusunda məruzə edib.



Bildirilib ki, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin və ümummilli maraqların təmin edilməsi naminə cəmiyyətimizin bütün təbəqələrinin qüvvəsini səfərbər edən partiya kimi yaradılıb.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının təsis konfransı partiyanın yaranmasından, təqribən, bir il sonra 1993-cü il noyabr ayının 5-də keçirilib. Təşkilatı hələ yaradılarkən artıq ciddi siyasi qüvvə kimi formalaşmış hesab etmək olardı. Belə ki, təsis konfransını 70 ərazi ilk təşkilatından seçilən 420 nəfər nümayəndə ilə keçirən Naxçıvan Şəhər Təşkilatı hələ o zaman öz sıralarında 5200 nəfər üzvü birləşdirirdi. 1993-cü ilin iyun ayında ölkədə milli dövlətçiliyin məhvi və vətəndaş müharibəsi təhlükəsinin yaranması ilə nəticələnən siyasi hakimiyyət böhranı şəhər partiya təşkilatının təsis konfransını bir qədər yubatmışdı. Belə ki, təşkilatımız təsis edilərkən artıq ulu öndərimiz Heydər Əliyev 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilmiş, başqa sözlə, partiya çox qısa müddətdə müxalifət təşkilatından iqtidar partiyasına çevrilmişdi.

Qeyd olunub ki, 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti, 2005-ci ilin martında partiyanın III Qurultayında Yeni Azərbaycan Partiyasının Sədri seçilən cənab İlham Əliyev ona bəslənilən bütün ümidləri ən mükəmməl şəkildə doğruldub. Dövlət başçısının rəhbərliyi altında bu gün müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Azərbaycan artıq həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib.

Vurğulanıb ki, zamanın sınağından uğurla çıxmış Heydər Əliyev siyasəti bu gün Naxçıvanda da qətiyyətlə davam etdirilir. Ötən 23 illik zaman məsafəsi muxtar respublikada da sürətli sosial-iqtisadi inkişaf və elmi-mədəni intibah dövrü kimi muxtariyyət tarixinin ən şanlı səhifəsini təşkil edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun muxtar respublikamıza uğurlu rəhbərliyi ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinə dönməz sədaqətin bariz nümunəsidir.

Diqqətə çatdırılıb ki, inkişaf proseslərində Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının üzvləri də yaxından iştirak ediblər. Hazırda 17 min 820 üzvü olan təşkilatın sıralarında 9 min 398 qadın, 10 min 850 gənc təmsil olunur. Təkcə son iki ildə təşkilatda partiyaya 2036 üzv qəbul edilib ki, bunların da 1180-i qadın, 1990-ı gənclərdir. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının 2 üzvü Azərbaycan Respublikası Milli Məclisinin, 19 üzvü isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Üzvlərin 2-si akademik, 5-i AMEA-nın müxbir üzvü, 26-sı elmlər doktoru, 162-si fəlsəfə doktorudur.

Məruzə ətrafında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva, təşkilatın Gənclər Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, dosent Asəf Əliyev, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Şura üzvü Könül Mirzəyeva çıxış edərək əqidə həmkarlarına təbriklərini çatdırıblar.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı İdarə heyətinin üzvü, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi uğurlu yola qısaca nəzər salıb, təşkilat üzvlərini yubiley münasibətilə təbrik ediblər.

Tədbirdə bir qrup veteran partiya üzvünə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının fəxri fərmanları və qiymətli hədiyyələr verilib, partiyaya yeni qəbul olunmuş gənc üzvlərə partiya vəsiqələri və oxunması zəruri olan kitablar təqdim olunub.

Sonda tədbir iştirakçıları Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş filmə baxıblar.

**Xəbərlər şöbəsi**

## Elmi-nəzəri konfrans keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası məqsədilə Naxçıvan Dövlət Universitetində keçirilən silsilə tədbirlər davam etdirilir. Ali təhsil ocağının Pedaqoji fakültəsi ilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkil etdiyi elmi-nəzəri konfrans da bu məqsədə xidmət edib.*

Əvvəlcə universitetin Çağırışaqədərki hazırlıq və mülki müdafiə ixtisası tələbələrinin sıra hazırlığı dərsinə baxış olub.

Tədbirdə çıxış edən rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov vurğulayıb ki, universitetdə tələbə-gənclər Vətənə sonsuz sədaqət, xalqa məhəbbət, milli adət və ənənələrə hörmət, hər an Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazır olmaq ruhunda tərbiyə olunur.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov "Müstəqillik xalqımızın ən böyük sərvətidir" mövzusunda çıxışında qeyd edib ki, məhz ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanılıb, digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da islahatlar aparılıb. Ordunun müasir texnika ilə gücləndirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı istiqamətində mühüm tədbirlər həyata keçirilib.

Bildirilib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycan Prezidentimiz cənab İlham Əliyevin uğurlu siyasi fəaliyyəti nəticəsində inamla irəliləyir. Ölkə başçısının fəaliyyətinin ana xəttini təhlükəsizlik, ictimai-siyasi sabitlik, iqtisadiyyatda davamlılıq, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi, ordu quruculuğu təşkil edir.

Diqqətə çatdırılıb ki, 2016-cı ilin aprel döyüşləri, bu ilin may ayında zəfərlə başa çatan Günnüt əməliyyatı Azərbaycan xalqının qələbəyə inamından, ordu və xalq birliyindən, əsgər və zabitlərin döyüş əzmindən xəbər verir.

Xidmətin əməkdaşı, mayor Vüsal Əliyev Azərbaycan Respublikasının Dövlət Bayrağının dövlət müəssisələrində, ictimai təşkilatlarda müvafiq formada istifadə qaydaları haqqında məlumat verib.

"Dövlət bayrağımız qürur mənbəyimizdir" adlı çıxışında həmin kafedranın müəllimi Pərviz Allahverdiyev Dövlət Bayrağı Gününün tarixinə nəzər salıb, 2009-cu il noyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncamını xatırladıb. Vurğulanıb ki, Milli Məclis həmin il dekabrın 4-də noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib.

Sonda fakültənin dekanı, dosent Vəli Əliyev belə hamilik tədbirlərinin keçirilməsinin tələbələrin nəzəri biliklərinin təcrübədə möhkəmləndirilməsindəki rolundan danışıb.

**Səadət ƏLİYEVA**

## Oktyabr ayında əmək yarmarkaları vasitəsilə 204 nəfər işlə təmin edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən oktyabr ayında da əmək yarmarkaları təşkil edilib.

Ötən ay keçirilmiş əmək yarmarkalarında 220 idarə, müəssisə və təşkilatdan, o cümlədən 46-sı özəl sektora aid olmaqla, ümumilikdə, 1857 boş iş yeri təqdim olunub. Bu iş yerlərindən 1497-si dövlət, 238-i qeyri-dövlət müəssisələrini əhatə edib. Keçirilmiş əmək yarmarkaları nəticəsində 204 işaxtaran vətəndaşın 96-sı dövlət, 108-i isə özəl sahədə işlə təmin olunub. Onlardan 52-si 29 yaşadək gənc, 3-ü sağlamlıq imkanları məhdud olan şəxs, 57-si isə qadındır.

Yarmarkalarda, həmçinin Culfa rayonunun Saltaq, Kəngərli rayonunun Qarabağlar və Xok kəndlərinin hər birində 1 nəfər olmaqla, ümumilikdə, 3 nəfər kənd xidmət mərkəzlərinə bərbər işləmək üçün göndərilib.

Əmək yarmarkalarında Naxçıvan Şəhər Məşğulluq Mərkəzi tərəfindən 44, Şərur rayonundan 36, Babəkdən 34, Ordubaddan 21, Culfadan 20, Şahbuzdan 15, Kəngərlidən 23, Sədərəkdən isə 11 işaxtaran müxtəlif işlərlə təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

İcmal

# İqtisadi resurslardan səmərəli istifadə, quruculuq ərməğanları, vətənpərvər gənclik və gündən-günə güclənən ordu

***Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin uğurla davam etdirilməsi nəticəsində muxtar respublikamızda yüksək mənəvi dəyərlərə malik sağlamdüşüncəli, vətənpərvər, xalqını, millətini sevən gənclik formalaşıb. Məhz bunun nəticəsidir ki, bu il üçün ölkəmizin Gənclər Paytaxtı olan Naxçıvanda gənclərin fəallığı, təşəbbüskarlığı artıb, vətəndaşlıq mövqeyi möhkəmlənib. Naxçıvanlı gənclər muxtar respublikada onlara istiqamətlənmiş ardıcıl sosial layihələrdən bəhrələnirlər. Həmin layihələr çərçivəsində gənclər üçün yeni binalar inşa olunur.***

Onu da qeyd edək ki, dövlət tərəfindən maliyyələşdirilən bu layihələr ilk dəfə Naxçıvan şəhərində həyata keçirilərək Gənclər şəhərciyi tikilib istifadəyə verilib. Kəngərli və Sədərək rayonlarında da gənclər üçün yeni yaşayış binalarının tikintisinə başlanılıb. Görülən kompleks işlərin davamı olaraq oktyabrın 1-də Babək qəsəbəsində gənc ailələr üçün inşa edilmiş 8 mərtəbədən ibarət olan 28 mənzilli yeni yaşayış binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib, binanın gələcək sakinlərinə rahat və firavan həyat arzulayıb, bu işlərdə əməyi olanlara təşəkkür edib.

İslam Mədəniyyətinin Paytaxtı kimi digər bir mötəbər missiyanı yerinə yetirən Naxçıvanda ötən illər ərzində dövlət-din siyasətinin uğurla həyata keçirilməsi dini və mənəvi dəyərlərimizin qorunmasına, İslam dininin olduğu kimi təbliğinə geniş imkanlar açıb. Muxtar respublikamızın yaşayış məntəqələrində yeni məscid binalarının və mərasim evlərinin tikilməsi reallaşdırılan dövlət-din siyasətinin mühüm istiqamətlərindəndir.

Oktyabrın 1-də Babək qəsəbəsində məscid və mərasim evi istifadəyə verilib. Ali Məclisin Sədri Naxçıvan şəhərinin, Şərur, Babək və Ordubad rayonlarının dini icmalarının rəhbərlərinə “NAZ Lifan 330” markalı xidməti avtomobillərin açarlarını təqdim edib.

İqtisadiyyatı sürətlə inkişaf edən, bütün sahələrdə böyük nailiyyətlərə imza atan Naxçıvan Muxtar Respublikasının bu gün dünyanın 50-dən çox ölkəsi ilə ticarət əlaqələri mövcuddur. Muxtar respublikanın əhəmiyyətli turizm potensialı, burada elmin, mədəniyyətin, təhsilin və digər mühüm sahələrin inkişaf etməsi, onun bu istiqamətlərdə əlaqələrini daha da genişləndirməyə hərtərəfli şərait yaradır. Bu sırada regionun və dünyanın əhəmiyyətli ölkələri özünəməxsus yerə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov oktyabrın 1-də Türkiyənin muxtar respublikaya yeni təyin olunmuş Baş konsulu Məhmət Emin Kiraz, oktyabrın 17-də isə İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stav ilə görüşüb. Söhbət zamanı mövcud əməkdaşlıq imkanları müzakirə olunub, qarşılıqlı maraqdoğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində muxtar respublikamızda həyata keçirilən tədbirlər prioritet sahə olan taxılçılığın inkişafına da geniş imkanlar açıb. Bu sahənin dövlət tərəfindən dəstəklənməsi, texnika, gübrə və toxum təminatı, eləcə də mütərəqqi suvarma sistemlərinin qurulması məhsul istehsalının artmasına səbəb olub.

Oktyabrın 6-da Ali Məclisin Sədri “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl əkini sahələrinə gəlib, əkinin gedişi ilə maraqlanıb.

Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasını gücləndirib, onun döyüş qabiliyyətini artırıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq oktyabrın 8-də Əlahiddə Ümumqoşun Ordunun yeni hərbi hissəsi istifadəyə verilib.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib, hərbi hissədə nümunəvi xidmət şəraitinin yaradıldığını bildirib, şəxsi heyətin peşəkarlığının və döyüş hazırlığının daim artırılması, texnikaların saxlanma şəraitinə nəzarət olunması və təhlükəsizlik qaydalarına əməl edilməsi barədə tapşırıqlar verib.



Heydər Əliyev siyasi xəttinə sədaqət muxtar respublikanın bütün yaşayış məntəqələrində sürətli və kompleks inkişafı təmin edib, hətta ucqar dağ və sərhəd kəndlərimizdə də müasir infrastruktur yaradılıb. Son illər belə ünvanlarda tikilən gözəl məktəb binaları, kənd və xidmət mərkəzləri, səhiyyə ocaqları, salınan abad yollar həmin kəndlərin sakinlərinin rahat yaşayışının təmin olunmasına xidmət edir. Etibarlı müdafiə olunan dağ və sərhəd kəndlərimizə bu gün fasiləsiz təbii qaz və elektrik enerjisi verilir, rabitə xidməti göstərilir. Yeni yol rahat gediş-gəlişi təmin edir, müasir məktəb binaları şagirdlərin hərtərəfli hazırlanmasına imkan verir, müasir tibbi xidmət sakinlərin sağlamlığını qoruyur, internetə çıxış imkanı isə insanların dünyagörüşünün artmasına şərait yaradır. Bir sözlə, havası, suyu təmiz olan, hərtərəfli şəraitə və özünəməxsus müsbət auraya malik kəndlərimiz bir cazibə məkanına çevrilirlər. Məhz bunun nəticəsidir ki, həmin ünvanlarda işləmək istəyənlərin sayı getdikcə artır.

Oktyabrın 15-də Babək rayonunun Aşağı və Yuxarı Buzqov kəndləri də belə yaşayış məntəqələrinin sırasına qoşulub, həmin kəndlərdə yeni sosial obyektlər istifadəyə verilib, müasir yol infrastrukturu qurulub.

Aşağı Buzqov kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsindən sonra məktəbin pedaqoji kollektivi ilə görüşən Ali Məclisin Sədri deyib: ***“Müasir məktəb binası gənclərimizi gələcəyə hazırlayan təhsil abidəsidir. Bu il təyinatla iki gənc müəllim Aşağı Buzqov kənd tam orta məktəbində işlə təmin olunub. Artıq gənclərimiz kəndlərdə işləməyə daha çox üstünlük verirlər. Bunun da əsas səbəbi kəndlərimizdə şəhər rahatlığının yaradılmasıdır. Şəhərlərimizdə də müasir məktəblər var. Lakin təmiz hava və səfalı təbiət kəndlərimizdədir. Bütün bunlarla yanaşı, yaradılan müasir infrastruktur da kənddə yaşamaq və işləmək üçün geniş imkanlar açır. Çünki yaxşı iş şəraiti həm də yaxşı əhval-ruhiyyə deməkdir. Vaxtilə gənclərimiz şəhər məktəblərində işləməyə daha çox üstünlük verirdilər. Lakin şəhərlə kənd arasındakı fərqin aradan götürülməsi gənclərin kəndlərdə məskunlaşmasına və işləməsinə geniş imkanlar açıb. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, gənclərin hərtərəfli təhsil alması qayğısına qalmalıdırlar”.***

Oktyabrın 18-də – Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, Azərbaycan Respublikasının orden və medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü, orden və medalların, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim edib.

Muxtar respublikamızın coğrafi vəziyyəti, iqlimi və bitki örtüyü burada arıçılığın da inkişafına geniş imkanlar açır. Onun əhəmiyyəti təkcə qiymətli arıçılıq məhsullarının istehsalı ilə bitmir, eyni zamanda əhalinin məşğulluğunun, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında və toxumların keyfiyyətinin yüksəldilməsində də xüsusi rol oynayır. Bu səbəbdən arıçılığın inkişafı diqqətdə saxlanılır. Həmin sahənin stimullaşdırılması, məhsulların daha geniş alıcı kütləsinə təqdim edilməsi məqsədilə muxtar respublikada keçirilən və böyük maraqla qarşılanan festivallar artıq ənənəvi xarakter alıb. Oktyabrın 20-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində üçüncü “Arıçılıq məhsulları – bal festivalı” keçirilib.

Ali Məclisin Sədri festivalda iştirak edib, Naxçıvan balının sərgi-satışı ilə tanış olub.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***“Azərbaycana bəxş etdiyim töhfələr – zavodlar, buruqlar, binalar, obyektlər, abidələr, yeni qəsəbələr mən həyatda olmayanda da Heydər Əliyevin izləri kimi yaddaşlarda yaşayacaqdır”.*** Bu il yaranmasının 40 illiyini qeyd etdiyimiz Babək rayonu və Babək qəsəbəsi də ulu öndərimizin yadigarları kimi yaşayır və inkişaf edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il fevralın 16-da “Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında” Sərəncam imzalayıb. Bununla bağlı təsdiq olunan Tədbirlər Planına əsasən rayonda geniş quruculuq işləri aparılıb, Babək qəsəbəsində dövlət qurumları və ictimai təşkilatlar üçün inzibati bina əsaslı şəkildə yenidən qurulub.

Oktyabrın 22-də Babək rayonunda dövlət qurumları və ictimai təşkilatlar üçün inzibati bina istifadəyə verilib.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində bu gün Babək rayonu özünün inkişaf dövrünü yaşayır. 1996-cı ildən başlayaraq rayonda kompleks quruculuq tədbirləri həyata keçirilib, yeni istehsal və xidmət sahələri yaradılıb, əhalinin səmərəli məşğulluğu təmin edilib. Rayonun Babək qəsəbəsi və kəndləri artıq kompleks şəkildə abadlaşdırılıb. Hazırda rayonda yüngül, yeyinti, kağız, karton və poliqrafiya, tikinti sahələrini əhatə edən 70-dən artıq müəssisə fəaliyyət göstərir. Son 20 ildə burada 41 təhsil ocağı, o cümlədən 13 min 136 şagird yerlik 35 ümumtəhsil məktəbi, 1 uşaq bağçası, 5 uşaq musiqi məktəbi, 34 səhiyyə, 28 mədəniyyət, 3 idman obyekti, 63 inzibati bina, 161 istehsal, xidmət və digər infrastruktur obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. 2017-ci ildə muxtar respublika üzrə kənd təsərrüfatında istehsal olunmuş ümumi məhsulun 20 faizi, yaxud 96 milyon manatı Babək rayonunun payına düşüb. 2004-cü ildən 1 oktyabr 2018-ci il tarixədək 8746 yeni iş yeri açılıb ki, bunun da 6862-si və ya 78,5 faizi daimi iş yeridir.

Bu faktlar oktyabrın 22-də Babək Rayon Mədəniyyət Evində rayonun yubileyi ilə əlaqədar keçirilən tədbirdə səsləndirilib.

Ali Məclisin Sədri Babək rayonunun təşkil olunmasının 40 illik yubileyi münasibətilə tədbir iştirakçılarını, Babək rayonunun əhalisini təbrik edərək deyib: ***“40 il bundan əvvəl Babək rayonunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərində ulu öndər bir tərəfdən milli şüurun bərpası istiqamətində tədbirlər həyata keçirir, digər tərəfdən isə regionlarda geniş quruculuq işlərinin aparılması, dağ, eləcə də sərhəd kənd və rayonlarının möhkəmləndirilməsi, yeni qəsəbələrin, rayonların yaradılması barədə qərarlar qəbul edirdi. O dövrdə yeni yaranan rayonlardan biri də Naxçıvan Muxtar Respublikasının Babək rayonu idi. 1978-ci ildə xalq qəhrəmanı Babəkin adını daşıyan rayonun yaradılması Heydər Əliyev milli quruculuq strategiyasının nəticəsi kimi mühüm əhəmiyyətə malikdir”.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının fəxri adlarına və “Rəşadətli əməyə görə” nişanına layiq görülənlərə müvafiq təltiflərin təqdimatı olub.

Naxçıvanda mövcud olan bütün iqtisadi resurslardan səmərəli istifadə sahəsində geniş təcrübə formalaşıb. Bu təcrübənin müxtəlif sahələr üzrə uğurla tətbiq olunması iqtisadiyyatın şaxələndirilməsi kimi günün tələblərinin yerinə yetirilməsinə imkan yaradır, buna paralel olaraq muxtar diyarımızın investisiya cazibədarlığı daha da artır.

Oktyabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janq ilə görüşü zamanı bu məsələ xüsusi qeyd olunub.

Ali Məclisin Sədri Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən Naxçıvan şəhərində həyata keçirilmiş “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsinin uğurla başa çatması münasibətilə Vençay Janqı təbrik edib.

Ali Məclisin Sədri deyib ki, layihə çərçivəsində 350 kilometr içməli su və 332 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 135 min nəfər standartlara uyğun içməli su ilə təmin olunub. Həmçinin layihədən qənaət olunmuş vəsait hesabına 3 yaşayış məntəqəsində də içməli su və kanalizasiya şəbəkəsi qurulub.

Dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın qardaş Türkiyə ilə əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikası xüsusi rol oynayır. Qədim diyarımızla Türkiyənin yaxın vilayətləri arasındakı əlaqələr hər keçən gün daha da inkişaf edir, qarşılıqlı faydalı əməkdaşlıq qurulur.

Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 95-ci ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilib. Ali Məclisin Sədri rəsmi qəbulda iştirak edib.

Bu gün muxtar respublikada etibarlı hərbi təhlükəsizlik sistemi qurulub, görülən ardıcıl tədbirlər nəticəsində bütün güc strukturlarımızın hərbi birləşmələri əməliyyat-taktiki baxımdan yüksək döyüş qabiliyyətinə sahib olub. Ötən il oktyabrın 18-də Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi parad, bu ilin may ayında isə ordumuzun ön xəttin dövlət sərhədi boyu 26 kilometr məsafəni əhatə edən əməliyyatı nəticəsində 7 kilometrədək dərinlikdə mühüm əhəmiyyətə malik hakim yüksəklikləri ələ keçirməsi, Şərur rayonunun işğal altındakı Günnüt kəndini azad etməsi dosta sevinc, düşmənə gözdağı olub. Oktyabrın 30-da Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimləri də növbəti dəfə onu maraqla izləyən hər bir muxtar respublika sakinində fəxarət hissi yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi təlimi izləyiblər.

Ali Məclisin Sədri hərbi təlimin hadisəsiz və uğurla başa çatması münasibətilə zabit, gizir və əsgərləri təbrik edib, təlimdə iştirak edən bütün şəxsi heyətə təşəkkürünü bildirib.

Muxtar respublika rəhbəri yeni hərbi təyinatlı cihazlara baxıb, təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov xüsusi təyinatlıların təlim mərkəzində yaradılan şəraitlə də maraqlanıblar.

*Göründüyü kimi, ötən hər ay muxtar respublikamızda mühüm əhəmiyyət kəsb edən hadisələrlə, quruculuq ərməğanları ilə, yeni-yeni əhəmiyyətli nailiyyətlərlə yadda qalır. Bütün bunlar ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə hesablanmış inkişaf strategiyasının müasir mərhələdə müvəffəqiyyətlə, yüksək vətənpərvərliklə həyata keçirilməsi ilə yanaşı, həm də Rəhbər faktorunun real siyasi fəaliyyətdə təsdiqidir. Davamlı iqtisadi yüksəliş, müasir dövrün tələblərinə uyğun idarəetmə mexanizmi və aparılan məqsədyönlü, ardıcıl siyasət nəticəsində gündən-günə gəncləşən, müasirləşən qədim diyar bu gün özünün inkişafı ilə nümunədir. Muxtar respublikada görülən genişmiqyaslı işlər isə müstəqil Azərbaycan dövlətinin milli maraqlarının ən yüksək səviyyədə təmin olunmasına xidmət edir. Prezident cənab İlham Əliyevin dediyi kimi:* ***“Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır”.***

**Rauf KƏNGƏRLİ**

## Azərbaycan gəncliyinə doğan Günəş

***Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar keçirilən "Gənclər Paytaxtının ən yaxşı tələbə-gənclər təşkilatı" müsabiqəsi çərçivəsində "Azərbaycan gəncliyinə doğan Günəş" mövzusunda yazı müsabiqəsi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunan müsabiqədə qalib olan Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Fatimə Həsənovanın yazısını oxuculara təqdim edirik.***

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin məqsədi yeni nəsli fiziki, mənəvi-psixoloji cəhətdən sağlam, milli dəyərlərimizə sadiq gənclər kimi yetişdirmək, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdən ibarətdir. Ulu öndər gənc nəslin milli ruhda, milli-mənəvi dəyərlər əsasında təhsil və tərbiyəsini hər zaman vacib məsələlərdən biri hesab edirdi. Müstəqillik əldə etdikdən sonra ölkəmizdə həyata keçirilən siyasət milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaratdı.

Ümummilli lider Azərbaycana rəhbərliyinin bütün dövrlərində savadlı, yüksəkixtisaslı gənc kadrların yetişməsi işinə xüsusi diqqət göstərmiş, yüzlərlə azərbaycanlı gənci xaricdə təhsil almağa göndərmişdir. Dahi şəxsiyyət hər zaman qeyd edirdi ki, yalnız yüksək elm, təhsil sahibi olan gənclər milli-mənəvi dəyərlərimizi qoruyub saxlaya və Azərbaycan dövlətini inkişaf etmiş qabaqcıl dövlətlər səviyyəsinə qaldıra bilər.

Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin əsas tərkib hissəsi kimi həmişə xüsusi yer tutmuşdur. Gənclərin himayədarı olan ulu öndər sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifələrindən biri hesab edərək demişdir: ***"Gənclərimizin qarşısında duran ən əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir. Mənəvi tərbiyəni daim aparmaq və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Dövlətçilik və milli ideologiyamızın gələcək təminatı gənclərin bugünkü və gələcək mənəviyyatına bağlıdır. Gənclər hər bir ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında mühüm rola malik potensial qüvvə kimi mühüm yer tutur".***

Azərbaycan Gənclərinin II Forumundan sonra ulu öndər Heydər Əliyev tərəfindən imzalanan "Dövlət gənclər siyasəti haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Bədən tərbiyəsi və idman haqqında" fərman və sərəncamlar, "Gənc ailə", "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənclər siyasəti haqqında" dövlət proqramları, qanunlar qəbul edilmiş və həyata keçirilmişdir. Bütün bunlar gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının səmərəli təşkili problemlərinin həlli, hüquqlarının müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Bu mənada, ulu öndər həm Azərbaycanın milli müstəqilliyinin, dövlətçiliyimizin, həm də gəncliyimizin xilaskarı olmuşdur.

Bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin bəhrələrini Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının timsalında bütün incəlikləri ilə görmək mümkündür. Gəncliyin sağlam, vətənpərvərlik ruhunda yetişməsi, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün muxtar respublikamızda hər cür şərait yaradılıb. Gəncliyə göstərilən hərtərəfli dövlət qayğısının nəticəsidir ki, bu gün muxtar respublika gəncliyinin səsi artıq dünyanın inkişaf etmiş ölkələrindən gəlir.

Muxtar respublika gəncliyi isə göstərilən diqqət və qayğıya cavab olaraq qədim diyarımızda bütün sahələrin inkişafına layiqli töhfələr verməyə çalışır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin: ***"O dövlət, cəmiyyət güclüdür ki, onun gəncliyi, əhalisi dövlətə, mənsub olduğu xalqa sədaqətlidir, vətənpərvərdir, təhsillidir. Vətənpərvərliyi, milli ruhu, zəngin mədəniyyəti olmayan insan yüksək savada da malik ola bilməz. Odur ki, harada təhsil almağınızdan, fəaliyyət göstərməyinizdən asılı olmayaraq, unutmayın ki, müstəqil Azərbaycan Respublikasını təmsil edirsiniz, doğma ana yurdumuz Azərbaycandır. Azərbaycanın adını, azərbaycanlı şərəfini daim uca tutmalı, hər biriniz bu ada layiq olmalısınız"*** sözləri muxtar respublika gəncliyinin fəaliyyət proqramına çevrilmişdir.

Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsi ümummilli liderin dövlət gənclər siyasətinin muxtar respublikada uğurlu davamının bəhrəsidir. Gənclərin təhsilə, elmə, mədəniyyətə və incəsənətə marağının artırılmasına, onların stimullaşdırılmasına daim diqqət yetirilir. Tələbə-gənclərin yaradıcılıq potensialının üzə çıxarılması, bilik və bacarıqlarını nümayiş etdirmələri üçün muxtar respublikada hər cür şərait yaradılıb. Naxçıvanın Gənclər Paytaxtı seçilməsi muxtar respublika gənclərinin ictimai-siyasi həyatın bütün sferalarında aktiv fəaliyyət göstərməsi, öz innovativ potensialını, intellekt və istedadını ortaya qoyması üçün geniş imkan yaradır. İnamla deyə bilərik ki, bugünkü gənclər müstəqil dövlət quruculuğunda öz üzərlərinə düşən vəzifələrin və dahi rəhbərin tövsiyələrinin yerinə yetirilməsi məsuliyyətini dərk edərək müstəqil Azərbaycanı bəşəriyyətin siyasi gerçəkliyində möhtəşəmlik və müqəddəslik mücəssəməsinə çevirmək əzmindədirlər. Muxtar respublika gəncləri dövlətçilik ənənələrini daim uca tutur, ulu öndərin siyasi xəttinə sədaqət ruhunda böyüyürlər.

## Dövlət proqramı uğurla icra olunur



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsil imkanlarının genişlənməsinə və cəmiyyətə inteqrasiyasına əlverişli şərait yaradıb. Bu ilin ötən dövründə də dövlət proqramının icrası diqqətdə saxlanılıb.*



2018-2019-cu tədris ilində sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrinə cəlbi davam etdirilib. Bu dövrdə 46 uşaq məktəbəqədər təhsil müəssisələrində, 10 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində, 9 uşaq ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarında, nitq qüsuru olan 136 uşaq isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrində tədrisə cəlb edilib. Bundan əlavə, mərkəzin mütəxəssisləri tərəfindən Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində uşaqlarla fərdi qaydada reabilitasiyayönümlü məşğələlər də təşkil edilib.

2018-2019-cu tədris ilinin əvvəlində məktəb yaşı çatan sağlamlıq imkanları məhdud uşaqların sayı 103 olub ki, onlardan 64-ü ümumtəhsil məktəblərinin birinci siniflərinə, 1-i distant tədrisə, 1 uşaq isə Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbə cəlb edilib. Hazırda ümumtəhsil məktəblərində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların sayı 917, Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 7, Distant Tədris Mərkəzində isə 22-dir. Cari tədris ilində sağlamlıq imkanları məhdud aztəminatlı 278 uşaq məktəbli geyimi və ləvazimatları ilə təmin olunub. Ötən dövrdə sağlamlıq imkanları məhdud uşaqlar üçün tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən ümumtəhsil məktəblərində monitorinqlər davam etdirilib. Ordubad şəhər 3, Culfa şəhər 3 nömrəli və Kəngərli rayonunun Xok kənd tam orta məktəblərində maarifləndirici görüşlər keçirilib. Bununla yanaşı, ümumtəhsil müəssisələrində təhsil alan və distant tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqların muxtar respublikanın muzeyləri, Şahmat Mərkəzi, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birgə təşkil edilmiş interaktiv dərslərdə iştirakı təmin edilib.

Sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə, musiqi məktəblərinə, məktəbdənkənar müəssisələrin dərnəklərinə cəlb edilməsi, onların istirahətlərinin və asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensiallarının artırılması da diqqətdə saxlanılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan 1159 şagirdə peşəyönümlü məşğələlər keçirilib, əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilib.

2018-2019-cu tədris ilinin əvvəlində Naxçıvan Musiqi Kollecinə 1, Naxçıvan Dövlət Texniki Kollecinə 5, Naxçıvan Tibb Kollecinə isə müvafiq kateqoriyalı 4 nəfər qəbul olub. Hazırda həmin müəssisələrdə sağlamlıq imkanları məhdud 35 nəfər təhsil alır. Yeni tədris ilində bu kateqoriyadan olan 21 uşaq musiqi məktəblərinin 1-ci siniflərinə cəlb edilib. Hazırda muxtar respublikanın uşaq musiqi məktəblərində müvafiq kateqoriyalı 119 uşaq təhsil alır. Həmçinin 51 uşaq şahmat məktəblərinə, 108-i məktəbdənkənar müəssisələrin dərnəklərinə, 216-sı Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində məşğələlərə cəlb edilib.

Bu ilin ötən dövründə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində psixoloji dəstək xidmətinin fəaliyyəti davam etdirilib, müraciət edən hər bir uşaq üçün hazırlanmış fərdi proqram əsasında müvafiq reabilitasiya xidmətləri göstərilib, psixoloji dəstək xidmətinə 42 uşaq cəlb edilib. Bu dövrdə mərkəzdə eşitmə qabiliyyəti məhdud 8 uşağın tədrisi davam etdirilib, diqqət zəifliyi və hiperaktivliyi olan uşaqlar üçün təlim-bərpa otağında 11 uşağa məşğələ keçirilib. Mərkəzdə 10 uşağın təhsil aldığı art terapiya kursları, audio və elektron kitabxanaların zənginləşdirilməsi istiqamətində də işlər davam etdirilib. Hazırda audiokitabxana fondunda 1379, elektron kitabxana fondunda 773, brayl kitabxana fondunda isə 978 kitab mövcuddur. Görmə məhdudiyyətli şəxslər üçün "Könül işığı" və uşaqlar üçün "Şəfəq" adlı brayl jurnalların nömrələri də audiokitabxananın kataloquna daxil edilib. Mərkəzdə bütün zəruri tədris vəsaitləri ilə təchiz edilmiş musiqi terapiyası otağı da istifadəyə verilib. Burada keçirilən məşğələlərə 11 uşaq cəlb olunub.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təsdiq edilmiş qrafikə uyğun olaraq tətil günlərində sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə bir sıra tədbirlər, o cümlədən tarixi abidələrə və muzeylərə ekskursiyalar təşkil olunub, film və tamaşalar nümayiş etdirilib, yarış və müsabiqələr, bayram tədbirləri və valideynlərlə maarifləndirici görüşlər keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq "Yay məktəbi" çərçivəsində sağlamlıq imkanları məhdud 46 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilib. Burada onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün müxtəlif müsabiqələr və idman yarışları keçirilib. Bununla yanaşı, sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu uşaqlar qarşısında konsert proqramı ilə çıxış edib, həmçinin uşaqların təbiət gəzintiləri də təşkil olunub. Naxçıvan şəhərində keçirilən rəsm və əl işlərinin sərgi-satışında sağlamlıq imkanları məhdud uşaqların da 58 rəsm və əl işi nümayiş olunub.



Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin tibbi reabilitasiyası ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqlar alınıb, əyləncəli oyun sahəsi istifadəyə verilib. Sağlamlıq imkanları məhdud uşaqların tibbi reabilitasiyası məqsədilə Uşaq Bərpa Mərkəzində 279 uşağın müalicəsi təşkil edilib, 43 uşağa protez-ortopedik xidmət göstərilib, 33 uşaq texniki reabilitasiya vasitələri ilə təmin edilib, 23 uşağın isə ölkə daxilində müalicəsinə köməklik göstərilib.

Məhdud fiziki imkanlı uşaqların idman qruplarına cəlbi və onların cəmiyyətə inteqrasiyası məqsədilə ötən dövrdə muxtar respublikanın rayonlarında boccia bölmələri yaradılıb, məşqçi-müəllimlər müəyyənləşdirilib. Qruplar oyun üçün zəruri avadanlıqlarla təchiz edilib. Muxtar respublikada boccia üzrə məşqçilərin bacarıqlarını daha da artırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının dəvəti ilə Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia üzrə milli komandasının baş məşqçisi, Azərbaycan Boccia İdman Federasiyasının katibi və məşqçilər heyəti muxtar respublikaya dəvət olunub.

**_Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti_**

## VI Respublika Olimpiadasının üçüncü onlayn turu keçirilib

*Noyabrın 3-də Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə VIII-IX sinif şagirdləri arasında VI Respublika Olimpiadasının Naxçıvan Muxtar Respublikası üzrə onlayn turu təşkil olunub.*



"İstedadların hazırlığı laboratoriyası" layihəsi çərçivəsində keçirilən imtahanda 36 şagird iştirak edib. İmtahan turu 10 sualdan ( 3 fizika, 3 kimya, 4 riyaziyyat) ibarət olub və sualların cavablandırılmasına 45 dəqiqə vaxt ayrılıb.

Layihənin keçirilməsində əsas məqsəd gənclər arasında elmi-texniki sahələrə marağı artırmaq, istedadlı gəncləri üzə çıxarmaq, eləcə də müxtəlif beynəlxalq müsabiqələrdə gənclərin daha uğurlu iştirakını təmin etməkdir.

Qeyd edək ki, nəticələr bu gün *www.istedad.az* saytında yerləşdiriləcək. Üç turdan ibarət olan onlayn turların istənilən birində yüksək göstəricilər nümayiş etdirmiş gənclər olimpiadanın final turunda iştirak etmək hüququ qazanırlar.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə birlikdə bölmədəki vakant vəzifələrin tutulması üçün MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər 6 noyabr 2018-ci il tarixdən 6 dekabr 2018-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-a və ya $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər komissiyaya gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dqmk@nakhchivan.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

| Vəzifə kodu | Struktur bölmə | Ştat sayı | Vəzifə |
|---|---|---|---|
| **1. Bölmənin Aparatı** | | | |
| 5100002 | Köməkçi heyət | 1 | baş mütəxəssis |
| 5100003 | Köməkçi heyət | 2 | aparıcı mütəxəssis |
| 5100004 | Köməkçi heyət | 3 | mütəxəssis |
| 5101003 | Elmi-təşkilat şöbəsi | 1 | aparıcı mütəxəssis |
| 5101004 | Elmi-təşkilat şöbəsi | 2 | mütəxəssis |
| 5102003 | Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsi | 1 | aparıcı mütəxəssis |
| 5102004 | Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsi | 1 | mütəxəssis |
| 5103003 | İşlər idarəsi | 1 | aparıcı mütəxəssis |
| 5103004 | İşlər idarəsi | 1 | mütəxəssis |
| 5104004 | Təhsil və kadrlar şöbəsi | 1 | mütəxəssis |
| 5105002 | İnformasiya şöbəsi | 1 | baş mütəxəssis |
| 5106009 | Mərkəzi elmi arxiv | 1 | böyük arxivçi |
| **2. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu** | | | |
| 5111010 | Qədim və orta əsrlər tarixi şöbəsi | 1 | böyük laborant |
| 5112010 | Etnoqrafiya şöbəsi | 1 | böyük laborant |
| 5113010 | Qafqaz tarixi şöbəsi | 1 | böyük laborant |
| **3. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu** | | | |
| 5121010 | Folklorşünaslıq şöbəsi | 1 | böyük laborant |
| **4. Bioresurslar İnstitutu** | | | |
| 5131010 | Zooloji tədqiqatlar şöbəsi | 1 | böyük laborant |
| 5132010 | Torpaq ehtiyatları laboratoriyası | 1 | böyük laborant |
| **5. Təbii Ehtiyatlar İnstitutu** | | | |
| 5141010 | Sorbsiya prosesləri laboratoriyası | 2 | böyük laborant |
| 5142010 | Filiz və qeyri-filiz yataqları laboratoriyası | 1 | böyük laborant |
| 5143010 | Hidrogeologiya və mineral sular laboratoriyası | 1 | böyük laborant |
| 5144010 | Geoekologiya və seysmologiya laboratoriyası | 1 | böyük laborant |
| 5145010 | Coğrafiya şöbəsi | 1 | böyük laborant |
| **6. Batabat Astrofizika Rəsədxanası** | | | |
| 5151010 | Səma cisimlərinin mövqe müşahidələri şöbəsi | 1 | böyük laborant |
| 5152010 | Səma cisimlərinin fotometriyası şöbəsi | 1 | böyük laborant |
| **7. Əlyazmalar Fondu** | | | |
| 5161010 | Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsi | 1 | böyük laborant |
| 5162010 | Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası şöbəsi | 1 | böyük laborant |
| 5162011 | Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası şöbəsi | 1 | laborant |
| **8. Kitabxana** | | | |
| 5170007 | Kitabxana | 1 | baş biblioqraf |
| 5170008 | Kitabxana | 1 | biblioqraf |
| 5170006 | Kitabxana | 3 | kitabxanaçı |
| **Cəmi:** | | **38** | |

*Həkim məsləhəti*

## Sağlamlıq ən şirin nemətdir

*Aqillər insan üçün sağlamlığı ən şirin nemət hesab edirlər. Elə el arasında "sağlam bədəndə sağlam ruh olar" deyimi də hədər yerə işlədilmir. Belə ki, canımız sağlam olduqda bütün gözəllikləri görür, naz-nemətin ləziz dadını, tamını duya bilirik. Ömrümüzə qonaq gələn hər fəsil öz bənzərsizliyi ilə sağlam ruhumuzu daha da təzələyir, həyatımız maraqlı və xoş anlarla yaddaşımıza yazılır. Xəstələnən zaman isə gülün, çiçəyin ətrini duya bilmir, giley-güzarımız çoxalır, həyata küskünləşirik.*

Payız-qış aylarında havaların dəyişkən olması mövsümi xəstəlikləri qaçılmaz edir. Elə buna görə də ilin bu vaxtlarında soyuqdəymədən əziyyət çəkən, dərman üçün əczaxanalara üz tutan insanların da sayı çoxalır. Böyüklərin bədən müqaviməti və immuniteti güclü olduğu üçün bu xəstəliklər uşaqlara daha çox sirayət edir. Artıq payız fəslinin soyuq nəfəsi duyulduğundan azyaşlılarda mövsümi xəstəliklər baş qaldırır. Valideynləri isə, təbii ki, bir sual düşündürür. Övladını mövsümi xəstəliklərdən necə qorusun?

Elə bu və digər suallarla Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin uşaq bölməsinin müdiri Abbas Əliyevə müraciət etdik. O, bizimlə söhbət zamanı dedi ki, ilin bu vaxtında havanın temperaturu teztez dəyişdiyinə görə insan orqanizminin müqaviməti aşağı düşür. Buna görə də insanlarda əsas səbəbi bakteriyalar, viruslar olan kəskin respirator xəstəliklər, virus infeksiyaları müşahidə olunur. Belə xəstəliklərin törədiciləri hava-damcı və toz yolu ilə 1,5-2 metr məsafədən danışıq, asqırma, öskürmə zamanı bir şəxsdən digərinə keçə bilir. Mövsümi xəstəliklərə immuniteti zəif olan insanlarda, xüsusilə də məktəbəqədər və məktəbyaşlı uşaqlarda daha çox rast gəlinir.

Həkimin sözlərinə görə, kəskin respirator, virus infeksiyaları ilə azyaşlı uşaqlar ildə 5-8, yeniyetmələr isə 2-4 dəfə xəstələnirlər. Xəstəliyin əlamətləri uşaq yoluxduqdan 1-3 gün sonra başlayır və bir həftə müddətində davam edir. Xəstəliyə tutulan körpə uşaqda yüngül hərarət, burun tutulması, yuxunun pozulması və tək-tək qusmalar kimi hallar baş verir. Yeniyetmələrdə isə bu əlamətlərlə yanaşı, burun tutulması, boğazda ağrı, qaşıntı, bədəndə halsızlıq da müşahidə olunur. Böyükyaşlı şəxslərdə xəstəliyin kəskin dövründə baş ağrıları, xüsusən də başın alın və gicgah nahiyələrində, əzələ, oynaq və göz almalarında olan ağrılar, burunda göynəmə hissi, halsızlıq, iştahasızlıq daha qabarıq şəkildə özünü göstərir.

Abbas Əliyev bildirir ki, mövsümi xəstəliyin kəskin dövründə xəstələr 5-7 gün müddətində yataq rejimi keçirməlidirlər. Belə xəstəliklər keçici olduğundan xəstəyə qulluq edənlər şəxsi gigiyena qaydalarına mütləq əməl etməlidirlər. Xəstə gün ərzində, xüsusilə də bədənin hərarətli dövründə çoxlu meyvə şirəsi, mineral su qəbul etməli, zəncəfilli, limonlu, nanəli çay içməlidir. Əgər xəstənin bədən hərarəti 38 dərəcədən yuxarı qalxarsa, istilik endirən dərmanlar qəbul etməyi vacibdir. Mövsümi xəstəliklərdə boğaz ağrısı zamanı mürəbbəli və ya ballı çay, soda qatılmış isti süd içmək yaxşı təsir edir. Eləcə də boğazın çobanyastığı və ya duzlu su ilə qarqara olunması da məsləhətdir. Yataq rejimi zamanı ağır həzm olunan ətli xörəklər qida rasionundan çıxarılmalı, yüngül, asan həzm olunan yeməklərə üstünlük verilməlidir. Xəstəliyin profilaktikası məqsədilə xəstə, ilk növbədə, sağlam insanlarla ünsiyyətdən təcrid olunmalı, yatdığı otağın havası vaxtaşırı dəyişdirilməlidir. Əllər antibakterial sabunla yuyulmalı, xəstəlik hava-damcı yolu ilə yayıldığı üçün infeksiyanın qarşısını almaq məqsədilə asqırma və öskürmə zamanı burun və ağız boşluğu birdəfəlik dəsmalla örtülməli və yaxud qoruyucu maskadan istifadə olunmalıdır.

Abbas həkim mövsümi xəstəliklərə qarşı qabaqlayıcı tədbirlərdən də bəhs edərək qeyd etdi ki, ilin daha çox payız və qış aylarında təsadüf edilən belə xəstəliklərdən uzaq olmaq üçün insanlar gündəlik həyat tərzlərində bir neçə amilə xüsusi fikir verməlidirlər. Belə ki, idmanla məşğul olmaq, təmiz havada gəzmək sağlam yaşayışın əsasıdır. Bu zaman mövsümə uyğun geyim formasından istifadə məsləhətdir. Yeməklərdə daha çox immuniteti artıran ərzaqlara üstünlük verilməli, qida rasionuna soğan və sarımsaq əlavə olunmalıdır.

Həkimlə söhbətdən bir daha aydın oldu ki, istənilən mövsümdə sağlam həyat tərzi keçirmək olar. Yetər ki, səhhətimizin keşiyində düzgün dayanıb, sağlamlığımızın qayğısına vaxtında qalaq. Belə olan halda yaşadığımız həyatın rəngarəng gözəlliklərindən zövq ala, gələcəyə nikbin baxışlarla baxa bilərik.

✍ **Nail ƏSGƏROV**

### Naxçıvan Muxtar Respublikası üzrə 5 noyabr 2018-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2082,0 | 1987,0 | 95,0 |
| 2. | Babək rayonu | 5341,0 | 3921,0 | 1420,0 |
| 3. | Ordubad rayonu | 801,0 | 554,0 | 247,0 |
| 4. | Culfa rayonu | 2896,0 | 2524,0 | 372,0 |
| 5. | Kəngərli rayonu | 3590,0 | 1940,0 | 1650,0 |
| 6. | Şahbuz rayonu | 654,0 | 654,0 | - |
| 7. | Sədərək rayonu | 1063,0 | 861,0 | 202,0 |
| 8. | Naxçıvan şəhəri | 483,0 | 427,0 | 56,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16910,0** | **12868,0** | **4042,0** |

### Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin oktyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 320029 | 35482 | 35556 | 100,2 |
| 2. | Sədərək rayonu | 78775 | 8334 | 8349 | 100,2 |
| 3. | Babək rayonu | 788851 | 92109 | 92242 | 100,1 |
| 4. | Ordubad rayonu | 396094 | 43925 | 43973 | 100,1 |
| 5. | Culfa rayonu | 319424 | 35682 | 35710 | 100,1 |
| 6. | Şərur rayonu | 722952 | 78320 | 78348 | 100,0 |
| 7. | Kəngərli rayonu | 266727 | 29629 | 29636 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 1508082 | 185695 | 185700 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 11647192 | 1820765 | 1770749 | 97,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16048126** | **2329941** | **2280263** | **97,9** |

## Boks üzrə açıq birincilik olub

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş boks üzrə açıq birincilik keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdikləri birincilikdə 100-ə yaxın dəri əlcək sahibi 21 çəki dərəcəsində mübarizə aparıb.

Sonda qaliblər mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


### İtmişdir

Naxçıvan şəhəri, 20-ci məhəllə 4/6A ünvanında Səfərova Xatirə Abdulla qızının adına olan torpaq sahəsinin AA-007733 inventar nömrəli plan-ölçüsü və 0031294 inventar nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Məmmədrza Dizə kənd sakini İbrahimova Nəzakət Süleyman qızının adına olan JN-0015 inventar nömrəli, 10302028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 73, mənzil 2-də yaşamış Orucov Razi İlyas oğlunun adına olan 10476 inventar nömrəli texniki pasport və MH-0057800 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, "Atabəylər" məhəlləsi bina 10, mənzil 22-də yaşamış Abbasov Arif Nəcəf oğlunun adına olan evin 6738 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 813